**Kaspi.** - 2019.- 28-29 may. - № 96. - S. 15.

# İki əsər, bir tale

## *Və ya Azərbaycan Xalq Cümhuriyyətinin bədii ədəbiyyatda əksi*

**Ramiz Qasımov,**
AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru, dosent

Nakam, ancaq fəxarət dolu bir taleyi olan, 101 illiyi təntənə ilə qeyd edilən Azərbaycan Xalq Cümhuriyyətinin bədii ədəbiyyatda əksi məsələsi böyük maraq doğurur. "Sən qüdrətin aşıb-coşan vaxtında, ...Sən qəlbimin vuruşundan yarandın!" deyən Əhməd Cavadın bütün şeir təbi, yaradıcılıq həvəsi, söz qüdrəti Xalq Cümhuriyyətimizin yaranışından doğan sevinc və fərəhə həsr olunmuşdu. Başqa ədiblərimiz də Azərbaycan Xalq Cümhuriyyətinin yaranışından doğan sevinc və fərəhi, habelə onun nakam taleyini öz əsərlərində müxtəlif formalarda işıqlandırmışlar. Bu baxımdan, fikrimizcə, iki əsər xüsusilə diqqətçəkəndir. Hətta deyə bilərik ki, bu iki əsər bilavasitə müəlliflərinin Azərbaycan Xalq Cümhuriyyətinə həsr etdikləri bir dastandır, Azərbaycannamədir. Bu əsərlər Cəlil Məmmədquluzadənin "Anamın kitabı" pyesi və Mir Cəlalın "Bir gəncin manifesti" romanıdır.

Milli istiqlal ədəbiyyatımızın sərkərdəsi kimi böyük şöhrət qazanmış Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsəri böyük ədibin milli istiqlal, dövlətçilik, müstəqillik ideallarını özündə əks etdirən çox qiymətli bir bədii məxəzdir. Bu pyes əsl Azərbaycannamədir, azərbaycançılıq ideyalarının mənbəyidir. Görkəmli elm adamı akademik İsa Həbibbəylinin dediyi kimi: ""Anamın kitabı" – Azərbaycanın milli istiqlalı haqqında XX əsr boyu yazılmış silsilə əsərlərin mənəvi Anasıdır. ...C.Məmmmədquluzadənin "Anamın kitabı" əsəri ...milli-mənəvi özünüdərk, vətənçilik, milli birlik və müstəqillik dərsliyidir. "Anamın kitabı" – Azərbaycanın ...tale kitabıdır, milli ədəbiyyatımızın ən mükəmməl Azərbaycannaməsidir". ""Anamın kitabı" – bütün dövrlərin "ana kitabı" olaraq qalır".

Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsəri özündə başdan-başa müstəqil Azərbaycan ideyasını ehtiva edən bir əsərdir. Əslində üç qardaşın – Rüstəm bəy, Mirzə Məhəmmədəli və Səməd Vahidin faciəsi üzərində qurulan bu əsər, 1921-ci ildə yazıya alınmaqla böyük azərbaycançı ədibimizin müxtəlif fraksiyaların çəkişmələri üzündən tarixi taleyini sona çatdırmış Azərbaycan Xalq Cümhuriyyətinə ağı hesab edilə bilər. Bizə elə gəlir ki, bu üç qardaş Azərbaycan Xalq Cümhuriyyəti parlamenti və hökuməti daxilində bir-biri ilə ciddi fikir ayrılığı yaşayan və bir məxrəcə gələ bilməyən fraksiyaların (və onların aparıcı nümayəndələrinin) ümumiləşməsi, obrazlaşmasıdır. Ana Zəhrabəyimin və qız Gülbaharın timsalında xalqın onlara xoşbəxt gələcək gətirəcəklərinə böyük ümid bağladıqları, ayrı-ayrı yerlərdə təhsil alıb gələn Rüstəm bəy, Mirzə Məhəmmədəli və Səməd Vahidin bir-birlərini anlamamaqları və bir araya gələ bilməməkləri üzündən bir ailənin – bir dövlətin, bir xalqın çöküşündən söhbət getdiyi açıq-aydın görünməkdədir. Bizim fikrimizcə, bu əsər Azərbaycan Xalq Cümhuriyyətinin taleyini əks etdirir. Rüstəm bəy Rusiyada, Mirzə Məhəmmədəli İranda, Səməd Vahid Osmanlıda təhsil alıb o ölkələrin milli mədəniyyəti, siyasi maraqları və davranış ədalarını daşıdıqlarına görə də bir ailə daxilində heç cürə yola gedə bilmir, bir arada, bir ailədə doğmalaşmağı bacarmırlar. Hətta biri rus (Rüstəm bəy), digəri fars (Mirzə Məhəmmədəli), o biri isə Osmanlı (Səməd Vahid) təbirilə danışıb-anladığına görə, bu dost-doğma qardaşlar heç bir-biriləri ilə dil də uyuşdura, anlaşa bilmirlər ki, bilmirlər. Amma maraqlı burasıdır ki, Rüstəm bəy rusca-azərbaycanca lüğət hazırlayır ki, iki ayrı-ayrı dilin yad adamları bir-birini bu lüğətdən anlayıb başa düşə bilsinlər. Qəribədir ki, başqalarının bir-birini başa düşməsi, dil tapması üçün lüğət hazırlayan Rüstəm bəy, dost-doğma qardaşları ilə dil tapa, öz dillərində anlaşa bilmir. Yerə-göyə xüsuf-küsuf duası yazıb guya onları fəlakətdən xilas etmək istəyən Mirzə Məhəmmədəli öz qardaşları ilə bir olmağa, doğma ailəni dağılmaqdan xilas etməyə gücü yetəcək bir dua "yazmağı" bacarmır.

Elmi-qafiyə dərsi ilə sözlərin bir-birinə poetik uyğunlaşmasını öyrədən Səməd Vahid isə qardaşları ilə bir ailə doğmalığı ilə uyğunlaşa, bir ailənin qayda-qanunlarına uyuşa bilmir. Və bu münaqişənin, fikir ayrılığının dərdinə dözə bilməyən ana Zəhrabəyim – xalq, millət və Azərbaycan Xalq Cümhuriyyətinin taleyini ümumiləşdirən Ana, dünyasını dəyişməli, ömrünü övladlarına tapşırmalı olur. Ədibin qənaətincə, mədəniyyət-dünyagörüşü ayrılığından bir-birinə sözü xoş gəlməyən qardaşları vahid bir məxrəcə gətirmək üçün yeganə bir kitab qalır: Ananın kitabı – o kitab ki, Atanın vəsiyyətnaməsidir. Bu, Vətən kitabıdır, vətən naminə həmrəyliyin müqəddəs kitabıdır. Məhz bu kitab xilasın, nicatın yolunu, düsturunu göstərən kitabdır. O kitab ki, Vətənə iman dinin Quranıdır, Tövratıdır, İncilidir... Yalnız bu kitaba etiqadla ittihada gəlmək mümkündür. Bu kitab o kitabdır ki, buyurur: "Yer, Göy, Aylar və Ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır Günün başına dolanırlar. Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar; çünki Ay və Ulduz Şəmsin parçaları olan kimi, bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona müdamil-həyat əziyyət edəcək: nə qədər canında nəfəs var peşiman olacaq". Bu kitabın sözləri vətəndaşlığın

düsturunu, azərbaycançılığın qanununu, azərbaycanlılığın kəlmeyi-şəhadətini, Vətən adlı Allah yolunda namazın sözlərini ifadə edir!

XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından biri olan böyük ədib Mir Cəlalın "Bir gəncin manifesti" əsəri, fikrimizcə, adından tutmuş ideyasına qədər Azərbaycan Xalq Cümhuriyyətinin nakam taleyi və aqibətini ümumiləşdirmişdir. Ümumiyyətlə, böyük ustadı Mirzə Cəlil kimi sətiraltı məna və metaforik obrazlardan məharətlə istifadə edən görkəmli yazıçı Mir Cəlal başda "Bir gəncin manifesti" əsəri olmaqla bir sıra irili-xırdalı əsərlərində sovet dövründə "qadağan olunmuş duyğuları" ifadə etməyə, milli kimliyi eybəcərləşdirən sovet maşınının mənfi tərəflərini tənqid etməyə məharətlə müvəffəq ola bilmişdir.

Yazıçının şəxsi tərcümeyi-halına yaxınlığı ilə seçilən və əsl sənətkarlıq məharəti ilə ərsəyə gəlmiş "Bir gəncin manifesti" əsərinin həm Azərbaycan ədəbiyyatı tarixində, həm də yazıçının ədəbi irsində xüsusi yeri və əhəmiyyəti vardır. Ona böyük şöhrət qazandırmış "Bir gəncin manifesti" əsəri konkret ictimai-tarixi şəraiti və psixoloji-mənəvi reallığı özündə uğurla əks etdirən qiymətli bir əsərdir. Ədibin çox böyük ustalıqla yaratdığı Bahar surəti öz taleyi və faciəsi ilə Azərbaycan Xalq Cümhuriyyətinin taleyini xatırladır. Bu baxımdan əsərin əsas məziyyəti və əhəmiyyəti ondadır ki, Azərbaycan xalqının milli istiqlaliyyət və mücadilə əzminin nailiyyəti olan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti və onun sovet istilası nəticəsində süqutunu əks etdirir. Mir Cəlal böyük peşəkarlıq və ustalıqla davranaraq əsərdə həmin dövrlə əlaqədar bir sıra gerçəkləri əks etdirmiş, faciəvi həyat yaşayan, aqibəti ilə ürəkləri göynədən talesiz Bahar surəti ilə milli dövlətçilik tariximizdə xüsusi yeri olan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 aylıq nakam taleyi və yaddaşlardakı həzin izlərini əks etdirmişdir. Fikrimizcə, adından tutmuş yaşı və taleyinə qədər, Bahar, bir yaz dövrünün nailiyyəti olan və cəmi 23 ay ömür sürmüş Azərbaycan Xalq Cümhuriyyətinin tarixi taleyini, Azərbaycan xalqının işğal nəticəsində qəlblərə çəkilən müstəqillik duyğularının solan aqibətini əks etdirir. Doğru deyilib ki: "Onun əsərlərini oxuyan hər bir kəs ədibin, xalq üçün yanan nurlu qəlbinin arzu və istəklərini sətiraltı mənalarda, metaforik qatlarda məharətlə yerləşdirdiyinin şahidi olur. ...Azadlığın rəmzi kimi düşünülmüş Bahar obrazının ...taleyini izlədikcə Baharın bir azadlıq simvolu olduğunu başa düşməkdə çətinlik çəkmir". Doğrudur, ədib əslində "Bir gəncin manifesti" adı altında əsərin baş qəhrəmanı olan Mərdanın ömür və mübarizə yolunun manifestini əks etdirmişdir. Qaragünçü həyatından irəli gələrək bolşeviklərin şirin vədi və ideyalarına aldanaraq yoldan çıxan və bolşevik olan Mərdan kimi gənclər, apardıqları mübarizənin sonunda qalib olsalar da, nəhayətində mənsub olduqları xalqı və milli dövlətçiliklərini məğlub etdiklərini yalnız gecdən-gec anlaya, hətta anlamaya bilirlər. Bizə elə gəlir ki, manifesti əks olunan gənc bolşevik Mərdanla Azərbaycana rəhbərlik etmiş görkəmli ziyalı və ictimai xadim Nərimanovun talelərini ümumiləşdirmək olar. Nəriman Nərimanovun vaxtilə oğlu Nəcəfə yazdığı məktubundakı peşmançılığı Mərdanın Baharı xatırlayarkən duyduğu peşmanlıqla, hətta müəyyən mənada eyniləşdirmək və müqayisə etmək də mümkündür. Sanki Mir Cəlal məqsədli olaraq Mərdanı bütün bolşevik gənclərin timsalı kimi ümumiləşdirərək, onun öz dövlətini yıxaraq, Şura quruluşunu qalibiyyət sevincinin və əldə etdiyi qələbə fərəhinin qarşılığında ölümünə bais olduğu doğma qardaşı Baharın timsalında, onun faciəsindən irəli gələn peşmanlıqlarla dolu səmimi vətəndaşlıq duyğularını ifadə etmişdir. Söz yox, bütün hadisələr gözü qarşısında baş vermiş böyük ədibimiz əsl vətəndaşlıq duyğularını məhz bu mətnaltı formalarda ifadə etdiyini qətiyyətlə düşünmək olar.

Beləliklə, istər böyük ədib Mirzə Cəlilin "Anamın kitabı" pyesi, istərsə də görkəmli yazıçımız Mir Cəlalın "Bir gəncin manifesti" əsəri olsun, onları oxuduqca, adam, Azərbaycan Xalq Cümhuriyyətinin nakam taleyi ilə qarşılaşır sanki... Necə təsvir olunmasından, necə başa düşülməsindən asılı olmayaraq, bu iki əsəri Azərbaycan Xalq Cümhuriyyətinin tarixi taleyi işığında birləşdirən və sevdirən, əhəmiyyətini artıran çox əhəmiyyətli məsələlər var.